Təhsil Nazirliyində 2008/2009-cu dərs ilinə I, III-XI sinif şagirdləri üçün 102 adda 4.284.400 nüsxə dərsliyin və müəllim üçün vəsaitin siyahısı (Azərbaycan bölməsi üçün 62 adda 4.078.600 nüsxə, rus bölməsi üçün 40 adda 205800 nüsxə), tirajı və çap formatları təsdiq edilmişdir. I siniflər üçün nəzərdə tutulan 13 adda dərsliyin 12-si, 21 adda müəllim üçün vəsaitin 20-si müəyyən edilmiş tirajla, III-XI siniflər üçün nəşri nəzərdə tutulan 68 adda 3.543.900 nüsxə dərsliyin 31-i mövcud şagird kontingentinin 30%-i, 4-ü 45%-i, 33-ü isə 105%-i həcmində çap olunmuşdur.

Azərbaycan bölməsi üçün 7 adda yeni dərslik – "Azərbaycan dili" – VI, VII, VIII sinif, "İnformatika" – IX sinif, "Təsviri incəsənət" – V sinif, "Fransız dili" – X sinif, "Rus dili" – X sinif, rus bölməsi üçün isə 3 adda – "İnformatika" – VII sinif, "Literatura" - X sinif və "Çelovek i obşestvo" – XI sinif dərslikləri çap olunmuşdur.

Respublikanın xüsusi məktəbləri üçün dərsliklərin nəşrinə ciddi diqqət verilmişdir. 2008-ci ildə Gözdən əlil uşaqlar üçün (xüsusi iri şriftlərlə və brayl əlifbası ilə) 30 adda 2130 ədəd, zəif eşidən uşaqlar üçün isə 3 adda 900 nüsxə tirajla III, IV və V siniflərə dair "Oxu" dərslikləri çap olunmuşdur.

Ümumtəhsil məktəbləri üçün 2008-ci ildə 15 fənn üzrə 140 adda 1.400.000 tədris plakatı çap olunaraq təhsil müəssisələrinə paylanılmışdır.

Respublikanın məktəbəqədər təhsil müəssisələri üçün hazırlanmış 33 adda plakat, 39 adda test və təlim kitabı və 4 adda metodik vəsait təsdiq edilmiş və çap olunaraq məktəbəqədər təhsil müəssisələrinə paylanmışdır.

Ötən il Gürcüstanın təlim Azərbaycan dilində olan ümumtəhsil məktəbləri üçün 16 adda 20025 ədəd, Dağıstan məktəblərinə isə 19 adda 1752 ədəd dərslik göndərilmişdir. MDB və digər xarici ölkələrdəki "Bazar günü" məktəblərinə, o cümlədən, Rusiya, Ukrayna, Belarusiya,, Orta Asiya, Macarıstan, Almaniyaya "Əlifba", "Oxu", "Azərbaycan dili", "Ədəbiyyat", "Azərbaycan tarixi", "Azərbaycan coğrafiyası" dərslikləri, coğrafi xəritə və digər tədris vəsaitləri göndərilmişdir.